Sort Macarıstandan alınmış populyasiyanın parçalanması nəticəsində alınmış 29/2 xəttindən yaradılmış və 1994-cü ildə respublika üçün rayonlaşdırılmışdır. Fidan sortu kolformalı olub, bitkinin boyu 75-80 sm-dir. Sort tezyetişəndir, vegetasiya müddəti 144 gündür. Aşağıda yerləşən paxlaları hündürdür, mexaniki yığıma yararlıdır. Bir bitkidə paxlanın sayı 28-35, paxlada toxumun sayı 3-9 ədəddir. Paxlaları tünd yaşıl, silindrikdir. Göy noxudun rəngi açıq yaşıl, şirindir. 1000 ədəd toxumun kütləsi 160-190 qramdır. Toxumun rəngi sarı, iki tərəfdən basılmış formadadır. Konservə yararlıdır, konservi dequstasiya zamanı 4,7 bal almışdır.

Göy noxudunda quru maddə 21,1%, ümumi şəkər 4,7%, vitamin C 28,8 mq%, nişasta 4,6%, zülal 5,0 %, toxumunda 25,7% zülal, 39,9 %, nişasta və 1,5 % yağ vardır.



Respublikanın müxtəlif bölgələrində sortun məhsuldarlığı hektardan 45,9-73,3 və toxum məhsulu isə 22,8-26,7 sentnerdir. Tərəvəz noxudu həm əsas, həm aralıq və həm də təkrar əkində becərilə bilər. Sort üçün ən yaxşı sələf bitkisi, xiyar, pomidor, badımcan, kartof, cərgəarası becərilənlər, taxıl və s.-dir.

Tərəvəz noxudunun özü isə paxlalılardan başqa bütün bitkilərə sələf ola bilər.

Sort qida maddələri ilə yaxşı təmin olunmuş torpağa tələbkardır, rütubətə həssasdır, quraqlığa davamlıdır.

Tərəvəz noxudu əkilən sahələr əgər payızda əkiləcəksə sələf bitkisi yığılan kimi sahə disklənməli (6-8 sm dərinlikdə), bundan sonra sahə 27-30 sm dərinlikdə şumlanmalıdır, erkən yazda əkiləcəksə payızda dondurma şumu 27-30 sm dərinlikdə şumlanmalıdır. Arat edilmiş sahədə səpin aparmaq üçün 20-30 ton peyin və mineral gübrələrin nəzərdə tutulmuş normasının 60%-i sahəyə səpilib 25-27 sm dərinlikdə ACMP-14-5 kotanı ilə şumlama aparılır və dərhal sonra malalanaraq səpinə hazırlanır. Bərkimiş torpaqlarda 10-12 sm dərinlikdə kultivasiya edilir, malalanır sonra isə səpin aparılır.

Tərəvəz noxudu şaxtaya (-8$^0$C-yə qədər) və soyuğa davamlı bitkidir. Ona görə də payızda səpin aparılması məsləhətdir. Bu vaxt aparılan əkinlərdə bitkinin xəstəliyə tutulma ehtimalı (əsasən unlu şeh) az olur, eyni zamanda aralıq bitki kimi becərilir və torpaqdan səmərəli istifadə olunur, yazda yığıldıqdan sonra yerinə başqa bitkilər əkilir.

Toxum materialı səpinqabağı təmizlənir, cücərmə qabiliyyəti yoxlanılır. Toxumun təmizliyi 97-99%, cücərmə enerjisi 95-99% olmalıdır. Toxumlar səpindən qabaq Kortiram forte, Yunqo forte 3-5 q/kq, Kemdazin, Takistin (50%-li Karbandazim) 1-1,5 q/kq, Fundazol, Benolex (50%-li benomil 2 q/kq preparatlarından biri ilə dərmanmalıdır. Bu bitkini becərmək üçün torpaq səpinə tam hazırlandıqdan sonra bölgələrdən asılı olaraq – Abşeron, Lənkəran-Astara bölgəsi üçün payızda 15-20 oktyabr, yazda 25-30 fevral, Quba-Xaçmaz bölgəsi üçün isə yazda 5-10 martda səpin aparılır. Səpin norması 350000 ədəd toxum (60-70 kq), ən yaxşı səpin sxemi 45x10 sm və 30+30+30+50x10 sm-dir.

Toxumlar SO-4,2, SPUN-8, SPC-6 və SZ-3,6 taxılsəpənlə də səpilə bilər. Torpağa basdırılma dərinliyi 3-5 sm-dir.

Vegetasiya müddətində paxlalılar üçün qəbul edilmiş aqrotexniki qaydalara uyğun becərmə aparılır. Payız səpinində suya az ehtiyac olur.

Tərəvəz noxuduna qulluq işləri-torpağın yumşaldılması alaqsız saxlanması, yemləmə gübrələrinin verilməsi, əgər bitki sıx səpilibsə seyrəldilməsi, xəstəlik və zərərvericilərlə mübarizə, vaxtlı-vaxtında suvarmadan ibarətdir.

Vegetasiya ərzində bitkiyə iki dəfə yemləmə gübrələri vermək lazımdır. Birinci

yemləməni kütləvi çıxışdan 12-15 gün sonra, ikinci yemləməni isə qönçələmə dövründə vermək məsləhətdir. Tərəvəz noxudu torpaqda 30 kq/ha azot toplayır. Ona görə də azotun ən yüksək dozası 30 kq-dır Təsiredici maddə hesabı ilə fosfor və kalium gübrələri ($P_{60}$ $K_{40}$) verilməsi işləri aparılır. Bölgələrdən asılı olaraq vegetasiya müddətində 4-6 dəfə suvarma aparılır. Su norması hektara 350-900 $m^3$ arasında dəyişir.

Təhlükəli zərərverici sayılan dənyeyen böcəyə qarşı çiçəkləmə fazasında yeni Bİ-58, Poliqor, Korumaqoz (40%-li dimetorat) 1-1,5 l/ha, Desis, Dentis (25 q/l Beltametrin) 0,5 l/ha, şumi alfa (50 q/l Esfenvaleriat)-0,2-0,3 l/ha preparatlarından biri ilə çiləmə aparılır.

Respublikanın suvarılan zonalarında noxud bitkisinin cərgəaralarının becərilməsi kütləvi cücərti alınandan sonra, yəni bitkilərin hündürlüyü 10 sm olduqdan sonra başlamaq lazımdır. Vegetasiya ərzində 3-4 dəf yumşaltma və dibdoldurma aparılmalıdır.

Digər paxlalı bitkilərə baxanda tərəvəz noxudu və paxlasında məhsulun yetişməsi eyni vaxtda gedir. 1-ci yığıma paxlaların 80%-i yetişir. Yığım kütləvi çiçəkləmədən 8-10 gün sonra aparılmalıdır. Bu müddətdə göy noxudun tərkibində şəkərin miqdarı çox olur. Yığım vaxtında aparmaq lazımdır ki, yeni paxlalılar əmələ gəlsin.

Tərəvəz noxudu toxumunu taxıl yığan kombaynla yığmaq olar, o şərtlə ki, döyən aqreqat qabaqcadan nizamlanmalıdır.

Sortun toxumçuluq işi metodik göstərişlərə uyğun aparılır. Toxumluq sahədə torpaq becərilməsi və qulluq əmtəəlik məhsuldakı kimi aparılır. Fərq ondadır ki, suvarma əmtəəliyə nisbətən artıq verilir, aprobasiya və sort təmizliyi 2 dəfə aparılır.



Səpin zamanı zədələnməmiş, təmizlənmiş yüksək cücərmə qabiliyyətinə malik dərmanlanmış toxumdan istifadə edilməlidir. Bu bitkidə də toxum yığımı kütləvi şəkildə 1-2 dəfəyə aparılır. Sortun toxumları adi şəraitdə normal cücərmə qabiliyyətini 3-4 il ərzində saxlaya bilir.

*Azərbaycan Respublikası*
*Kənd Təsərrüfatı Nazirliyi*
*Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu*



# Tərəvəz noxudunun FİDAN sortu